**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**NƏSİMİ adına DILÇİLİK İNSTİTUTU**

*Əlyazması hüququnda*

**RUXSARA MİRZƏ QIZI FEYZİYEVA**

# AZƏRBAYCAN TARİXİ ROMANLARININ DİLİNDƏ DİALEKT LEKSİKASI (1960-1980-CI ILLƏRIN ROMANLARI ƏSASINDA)

**10.02.01 – Azərbaycan dili**

**Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**BAKI – 2012**

Dissertasiya işi Lənkəran Dövlət Universitetininin "Dil və ədəbiyyat" kafedrasında yerinə yetirilmişdir

**Elmi rəhbər:** **Məsud Əliağa oğlu Məmmədov**
*filologiya elmləri doktoru, professor*

**Rəsmi opponentlər:** **Bayram Baxşəli oğlu Əhmədov**
*filologiya elmləri doktoru, professor*

**Güntəkin Komunar qızı Binnətova**
*filologiya elmləri namizədi*

**Aparıcı təşkilat:** Azərbaycan Dövlət Pedaqoji Universitetinin Müasir Azərbaycan dili kafedrası

Müdafiə «___14__» _____02_________ 2012-ci il saat ____ da Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutunun nəzdində filologiya elmləri doktoru və filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən D.01.141 Dissertasiya Şurasının iclasında ediləcəkdir.

**Ünvan:** Bakı, AZ 1143, H.Cavid prospekti 31, V mərtəbə, AMEA Nəsimi adına Dilçilik İnstitutu

Dissertasiya işi ilə AMEA-nın Mərkəzi Elmi kitabxanasında tanış olmaq olar.

Avtoreferat «____» _____________ 2012-ci ildə göndərilmişdir.

**Dissertasiya Şurasının elmi katibi,**
**filologiya elmləri doktoru,**
**professor:** **Q.İ.Məşədiyev**

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Bədii dildə dialekt sözlərinin işlənmə mövqeyi və onların bu mühitdə üslubi funksiyalarının öyrənilməsinə Azərbaycan alimlərindən Ə.M.Dəmirçizadə, A.A.Axundov, T.İ.Hacıyev, M.C.Cahangirov, N.Q.Cəfərov, R.C.Məhərrəmova, E.M.Əlibəyzadə, T.Ə.Əfəndiyeva, N.M.Xudiyev, E.İ.Əzizov, V.R.Mursaquliyev və başqalarının tədqiqatlarında geniş yer verilmişdir. "Rəsul Rza və sərbəst şerin dili məsələləri" adlı kitabda şairin dilində işlənmiş dialektizmlərdən bəhs edən N.H.Məmmədova yazır: «Çox geniş anlayış olan dialektlər dilə, əsasən bədii yaradıcılıq vasitəsilə daxil olur. Elə müasir dildə dialekt sözlərinin işləndiyi yeganə sahə bədii üslubdur. Bu kateqoriyada sözlərin dilin başqa üslublarında işlənməsinə qətiyyən yol verilmir. Onlar ancaq bədii dildə özünə yer tapa bilir»[1]. Yazıçı öz dili ilə danışmaqla bərabər, əsərində surətlərin danışığına, söhbətlərinə, mükalimələrə daha geniş yer verir. «Təbiidir ki, ikinci halda dialekt sözlərinin işlənmə məqamları çoxalır, genişlənir, bu halda dialektizmlərin işlənməsi daha çox mətləbə yatır və qanunauyğun olur... R. Rza poeziya dilinin dialektizmləri xalça toxumaq üçün iplərin, ipliklərin təbiət boyaları ilə rənglənməsini xatırladır»[2].

Azərbaycan dilinin tərkib hissəsini təşkil edən dialektlər bütün inkişaf mərhələlərində ədəbi dillə qarşılıqlı əlaqədə olmuş, onun leksik, qrammatik normalarının formalaşmasına öz təsirini göstərmişdir. Dialektlər həm də canlı danışıq dilinin funksional çalarlarını, ona məxsus səciyyəvi cəhətləri özündə əks etdirməklə yanaşı, dialekt leksikasının, dialekt formalarının canlı dilə və ədəbi dilə keçməsində də mənbə rolunu oynayır. Hər bir dövrdə bədii ədəbiyyatda dialektə məxsus xüsusiyyətlərə rast gəlmək mümkündür. Müxtəlif bölgələrdən olan yazıçılar bəzən əsərlərində elə dialekt sözləri işlədirlər ki, onları heç bir dialektoloji tədqiqat və lüğətlərdə tapmaq olmur. Həmin sözlərin toplanıb tədqiq edilməsi dilimizin lüğət fondunun genişlənməsinə yardım edə bilər.

Bədii ədəbiyyat – bədii üslub kütləviliyi, daha geniş oxucu auditoriyasını əhatə etməsi ilə digər funksional üslublardan fərqli olaraq dilin bütün sfera və səviyyələrini özündə əks etdirə bilir. Başqa sözlə, burada yazıçı sərbəstdir, mövzusu, tipləri geniş və çoxşaxəlidir və dil bütün funksionallığı, dildaxili, dilxarici imkanları ilə burada iştirak edir. Bu imkanlar dialektlərin bədii mətndəki leksik-semantik, qrammatik struktur

---

[1] N.H. Məmmədova. Rəsul Rza və sərbəst şeirin dili məsələləri. Bakı, 2004, s. 230.
[2] Yenə orada, s. 238.

cəhətlərinin meydana çıxarılmasını təmin edir. Bu mənada diaxron və sinxron istiqamətdə bədii ədəbiyyatdan dialekt materiallarının toplanması və tədqiqi tarixi dialektologiya, ədəbi dillə dialektlər arasındakı əlaqələri kompleks şəkildə öyrənmək xüsusi önəm daşıyır.

Dialekt leksikası eyni zamanda dilin öz daxili imkanları hesabına zənginləşməsi üçün də mənbə rolunu oynayır. Sinonim cərgələrin və terminoloji fondun zənginləşməsi, omonimlərin yaranmasında da dialekt sözlərinin təsiri vardır. Dialekt leksikası ədəbi dil leksikasına görə işlənmə məhdudluğu ilə fərqlənməklə bərabər, işlənmə sahəsinə görə də eyni deyildir.

Odur ki, bədii ədəbiyyat, nəsr əsərləri, xüsusilə tarixi romanlar əsasında dialekt leksikasının araşdırılması bu məsələlərə aydınlıq gətirmək baxımından əhəmiyyətlidir, aktualdır.

**Tədqiqatın məqsəd və vəzifələri.** İşin əsas məqsədi 1960-80-ci illərin tarixi romanlarından dialekt leksikasını seçməklə dialekt və ədəbi dil, dialektlə canlı danışıq dili arasında olan əlaqələri, ədəbi dil normalarının müəyyənləşdirilməsində, dilin, xüsusilə sahə terminologiyasının zənginləşməsində dialektlərin mənbə rolunu oynamasını faktik materiallar əsasında göstərmək, neytral dialekt sözlərinin bədii mühitdə üslubi funksiyalarını, leksik, qrammatik, struktur xüsusiyyətlərini üzə çıxarmaqdan ibarətdir. Buna nail olmaq üçün dissertasiyada aşağıdakı vəzifələrin yerinə yetirilməsi qarşıya məqsəd qoyulmuşdur:

- 1960-80-ci illərin Azərbaycan tarixi romanlarından dialekt leksikasını toplamaq;
- bu materiallar əsasında ədəbi dillə dialektlər arasında qarşılıqlı əlaqəni aşkar etmək;
- dialekt sözlərinin ədəbi və canlı danışıq dilinə münasibətini meydana çıxarmaq;
- tarixi romanlardakı dialekt sözlərinin ədəbi dildəki sözlərə münasibətini, onların üslubi xüsusiyyətlərini aşkara çıxarmaq;
- dialekt sözlərinin bədii ədəbiyyatdakı estetik, poetik funksiyasını üzə çıxarmaq;
- tarixi romanlardakı dialekt sözlərini işlənmə dairəsinə görə müəyyənləşdirmək;
- tarixi romanlardakı dialekt sözlərinin leksik-qrammatik, struktur-semantik xüsusiyyətlərini aşkar etmək;
- tarixi romanlardakı dialektə məxsus bəzi qrammatik formaların variantlılığının tarixi qrammatika və müasir dil normalarında (fonetik, morfoloji) təzahürünü aydınlaşdırmaq;

– dialektlərdə izlərini saxlamış bəzi arxaik sözlərin tarixi romanlardakı koloritini, işlənmə mövqeyini müəyyənləşdirmək.

**Tədqiqatın elmi yeniliyi.** Bu dissertasiyada ilk dəfə olaraq ədəbi dilin ən işlək və geniş yayılmış bədii üslubundan – 1960-80-ci illərin tarixi romanlarından dialekt leksikası toplanıb tədqiqata cəlb olunmuş, dialekt sözlərinin işləklik dərəcəsi, bədii dildəki üslubi, poetik funksiyası təhlil edilib müəyyənləşdirilmiş, leksik-qrammatik və leksik semantik cəhətdən təsnif edilərək onların bədii dildəki funksional mövqeyi üzə çıxarılmışdır.

**Tədqiqatın metodları.** Dissertasiyanın yazılmasında əsasən təsviri, müqayisəli və müqayisəli-tarixi metodlardan istifadə edilmişdir.

**Tədqiqatın nəzəri əhəmiyyəti.** Dissertasiya işinin nəticələrindən, elmi müddəalarından Azərbaycan dilinin tarixi dialektologiyası, tarixi qrammatikası, tarixi leksikologiyası, eləcə də müasir Azərbaycan dili ilə bağlı məsələlərin işlənməsində, dialektlə ədəbi dil və dialektlə canlı danışıq dili arasındakı qarşılıqlı əlaqə məsələlərinin aydınlaşdırılmasında, bədii əsərlərdə dialekt sözlərinin yeri, işlənmə dərəcəsi ilə əlaqədar bir sıra mübahisəli məsələlərə aydınlıq gətirilməsində faydalanmaq olar.

**Tədqiqatın təcrübi əhəmiyyəti.** Dissertasiyanın faktik dil materialından dialektoloji lüğətlərin təkmilləşdirilməsində, sinonim, omonim, antonimlər, habelə sahə etimoloji lüğətlərinin tərtibində, bu sahə üzrə dərs vəsaitlərinin hazırlanmasında, xüsusi ixtisas kurslarının (məsələn, “Dil mədəniyyəti”), seçmə fənlərin aparılmasında mənbə kimi istifadə etmək olar.

**Tədqiqatın obyekti.** Dissertasiyanın adından da göründüyü kimi, tədqiqatın əsas araşdırılma qaynaqları 1960-80-ci illərin tarixi romanlarında işlənmiş dialekt leksikasıdır. Tədqiqatın mənbələrini İ.Şıxlının “Dəli Kür” (İŞD), Ə.Cəfərzadənin “Aləmdə səsim var mənim” (ƏCA), “Yad et məni” (ƏCY), “Bakı-1501” (ƏCB), “Cəlaliyyə” (ƏCC), M.İsmayılovun “Ağ yapıncı” (MİA), “El üçün yan” (MİE), C.Bərgüşadın “Siyrilmiş qılınc” (CBS), F.Kərimzadənin “Xudafərin körpüsü” (FKX) və “Çaldıran döyüşü” (FKÇ) romanları təşkil edir.

**Tədqiqatın aprobasiyası.** Dissertasiya işi Lənkəran Dövlət Universitetinin “Dil və ədəbiyyat” kafedrasında yerinə yetirilmiş, bu kafedrada keçirilən elmi seminarlarda və “Формирование Казахской государственности и историко-культурные ценности туркского мира (Шымкент, 2009), “Müasir elmin aktual problemləri” (Lənkəran, 2010), “Azərbaycanın inkişaf strategiyası və aktual elmi problemlər” (Lənkəran, 2011) konfranslarında müzakirə olunmuşdur. Dissertasiyanın əsas məzmunu çap olunmuş 12 məqalə və tezisdə öz əksini tapmışdır.

**Dissertasiyanın quruluşu.** Dssertasiya işin ümumi səciyyəsi, giriş, aparılan tədqiqatların təsvir olunduğu üç fəsil, nəticə, istifadə olunmuş ədəbiyyat siyahısından və «Dissertasiyaya əlavə»dən ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

"İşin ümumi səciyyəsi" hissəsində mövzunun əhəmiyyəti, məqsəd və vəzifələri, nəzəri və təcrübi əhəmiyyəti, tədqiqatın mənbə və metodları haqqında məlumat verilir. Dissertasiyanın "Giriş" hissəsində ədəbi dilin inkişafında dialekt leksikasının rolu, dilin maddi əsasını təşkil edən dialekt leksikasının ədəbi dillə qarşılıqlı şəkildə öyrənilməsi məsələlərindən bəhs edilir.

## I Fəsil. 1960-1980-ci illərin tarixi romanlarında dialekt leksikası və onların işlənmə dairəsinə görə təsnifi

Dialekt sözlərinin ədəbi dilin lüğət tərkibinə daxil olması üçün bədii ədəbiyyat keçid rolunu oynayır. Leksik-semantik cəhətdən ədəbi dildə işlədilməsinə ehtiyac olan dialekt sözlərini yazıçılar bədii ədəbiyyata gətirir, bunlardan ümumxalq səciyyəsi qazananlar ədəbi dilin lüğət fonduna keçərək onu zənginləşdirir. 1960-80-ci illərin tarixi romanlarından topladığımız dialektizmlər və onların tədqiqi göstərdi ki, bədii əsərlərdə işlənən dialekt sözləri yayılma dairəsinə görə fərqlənir. Bir qrup dialekt sözləri əksər dialekt və şivələrdə işlənir, geniş yayılır ki, bunlara da yazıçılarımızın əksəriyyətinin əsərlərində təsadüf olunur. Başqa bir qrup dialekt sözləri isə konkret bir dialektə, yaxud dialekt qrupuna aid olur, dildə işlənmə dairəsi məhdud olur. Bu baxımdan 1960-80-ci illərin tarixi romanlarında işlənmiş dialektizmləri də geniş və məhdud dairədə işlənən dialekt sözləri qrupuna ayırmaq olar. Onların əksəriyyəti ad və fellərdən ibarətdir.

**1.1. Geniş dairədə işlənən leksik dialektizmlər.** Bu sözlər dialektlərə aid olsalar da, onları canlı danışıq dili sözlərindən fərqləndirmək çətin olur. Belə dialektizmlərə *qahmar, qənşər, əlçim, doqqaz, dədə, kür, mağar* və s. misal göstərmək olar. Bu sözlər bədii ədəbiyyat üçün bir növ norma kimi qəbul edilsələr də, ədəbi dilin leksik normalarından kənar olduqları üçün ədəbi dil sözü kimi götürülmürlər və nominativ funksiya daşıyırlar. Lakin ədəbi dilin müəyyən bir dövründə dialekt-danışıq əlaməti olan bu xüsusiyyət başqa dövr və ya mərhələdə normaya çevrilir.

Tarixi romanlarda geniş dairədə işlənən adlardan ibarət dialekt sözlərinə aşağıdakı nümunələrdə rast gəldik: Şəhərin *barısı* yox kimidir,

açıq yerdə, açıq vuruşmada padşah qoşunlarının *qənşərində* dura bilmərik (MİA, 225); Mən də qoşuldum buna, mənim yüngülləşmiş çuvalımla onun *dağarını* boğaz-boğaza bağlayıb aşırtdıq öküzün üstünə (ƏCY, 300); Atlılar *doqqazda* dayandılar (İŞD, 260); Amma indi ilin elə vaxtıdır ki, kəndlilərin çoxunun çuvalı boşalıb, uşaqlarını yedirtməkdən ötrü *əppək* tapa bilmirlər (MİA, 219); Bu təhlükəli işdir. Axı onlardan qorxağı, *pampağı* da var (MİA, 30) və s.

Romanların dilində geniş şəkildə işlənən fellərdən ibarət dialektizmlərə isə aşagıdakı cümlələrdə təsadüf etdik: Mən sənin dediklərini yaxşı *anşırıram* (FKX, 170); Mitrofan furqonunu düz vağzalın qabağında *əylədi* (MİE, 44); Özün bilirsən ki, toplaşıb yığışılmaq, *xosunlaşmaq* olmaz (ƏCY, 143) və s.

**1.2. Məhdud dairədə işlənən leksik dialektizmlər.** Bu qrupa konkret bir dialektə və ya dialekt qrupuna aid olan və geniş oxucu kütləsinə aydın olmayan dialekt sözləri aiddir. N.M.Xudiyev belə dialekt sözlərini «dar məhəlli xarakter daşıyan dialektizmlər»[1] adlandırır. Bu dialekt sözləri də dissertasiyada adlar və fellər şəklində qruplaşdırılaraq tədqiq edilmişdir.

Romanlarda məhdud dairədə işlənən adlardan ibarət dialektizmlərə aşağıdakı nümunələrdə rast gəldik: Bu ürəyinə qarayara çıxmışlar elə *alamançı*, elə nöksədirlər ki, hər ay öz adamlarını daraşdırırlar camaatın canına (MİA, 16); Andır mal kimi *beytaş* qalırdım axşamacan, ac-susuz (ƏCC, 108); Sonra danışaram, qızım, ayrı *ecgahan* vaxtda (ƏCB, 50) və s.

Məhdud dairədə işlənən fellərdən ibarət dialektizmlərə aşağıdakıları nümunələrədə təsadüf etdik: Hüseyn bəy onun dərdini *anışdıra* bilmirdi (FKÇ, 125); Allahyarın həmişə olduğu kimi, indi də bu dərəyə çatanda sümüyü *eyməndi* (İŞD, 48); Madyan başını oynatdı, yalı daranmış saç kimi *əfsəndi* (FKX, 137) və s.

**1.3. Termin səciyyəli dialekt sözlər.** Dialekt leksikası həm də dilin terminoloji fondunun zənginləşməsi mənbələrindən biridir. «Dialekt və şivələr elə bir zəngin xəzinədir ki, termin yaradıcılığında ondan həmişə, hər zaman istifadə etmək mümkündür»[2]. Tədqiq etdiyimiz tarixi romanların dilində xalqın gündəlik həyatı, məişəti, təsərrüfatı, onu əhatə edən mühitlə əlaqədar bitki, ağac adları və s. sahələrlə bağlı aşağıdakı termin səciyyəli söz qrupları işlənmişdir:

1. Geyim, bəzək əşyalarının adlarını bildirən söz-terminlər: Uzun hörüklərini qızıl şəbəkə gül düzülmüş *çutqusunun* içərisinə salıb arxasına

[1] N.M.Xudiyev. Azərbaycan ədəbi dilinin sovet dövrü. Bakı, Maarif, 1982, s. 194.
[2] M.İ.İslamov. Termin yaradıcılığında dialekt sözlərindən istifadə / Termionologiya məsələləri. Bakı, 1987, s. 29

atardı (ƏCY, 114); Ağappaq üzündəki ağ qaşlar, ağ, dəyirmi saqqal, ağ *daqqa* papaq ağ simasına halə nur yağdırmışdı (ƏCC, 52); Qəbanın altından boğazına kip yapışmış *əyindiriyi* qara hərəmi ilə işlənmiş dümağ köynək geymişdi (ƏCB, 20) və s.

2. Yemək adlarını bildirən söz terminlər: Nabatı, paxlavanı, *teli* halvaçı Əhmədə tapşır hazırlasın (MİA, 150); Boylum, çıxdıq həyətə, yerə şirəki saldux, mən ağaya *bəysuma* catırmışdım (ƏCC, 125); Qız isə Xeyransa arvaddan əncir soyub möcalanda qurutmaqla *püsgəndə*, qaynadıb qurutmaqla *şirbədüşəndə* öyrənir, əncir doşabında ədvalı *zincilfərəc* bişirirdi... (ƏCB, 24).

3. Gündəlik məişət və təsərrüfatla bağlı əşya adlarını bildirən söz terminlər: Aşağıdakı boş *arxaclar* dəvə yunu rəngindəydi (FKX, 101); Qadın lavaşı təndirin *badına* yapıb qalxanda həyətlərində at üstündə oturmuş geyimli-kecimli bir adam görüb yaşmandı (FKÇ, 173); Süfrəyə lavaş, göy-göyərti, içərisində "Leyli-Məcnun" təsviri olan kasa, bir *dopu* da piti gətirdilər (FKÇ, 51); Arxa tərəfdən kazaka yaxınlaşdı və gözlənilmədən *irəşməni* hərləyib atdı (İŞD, 198) və s.

4. Botanika ilə bağlı söz-terminlər: *Boyçiçəyinin* xoş ətri kəklikotunun ətrinə qarışmışdı (CBS, 76); *Həmərsinlər,* zoğallar, çılpaq ağaclardan mərcan dənələri kimi sallanıb qalmışdı (FKX, 89); Gəlin gənc idi, *toxmacar* kimi əndamlı idi (ƏCB, 155) və s.

5. Coğrafi terminlər: Çayın ortasında su burulur, *gicov* getdikcə dərinləşirdi (ƏCB, 54); Qayanın ən çılpaq, dik *tınağında* bir quzğun oturmuşdu (ƏCB, 45); Onların yolu çayın sahilində *yastanlara* çıxdı (FKX, 60); *Gədiyə* çatanda qargirvə gücləndı (ƏCB, 157) və s.

## II Fəsil. 1960-1980-ci illərin tarixi romanlarında işlənmiş dialekt sözlərinin struktur və leksik-semantik xüsusiyyətləri

**2.1. Dialektizmlərin struktur tipləri.** Bədii ədəbiyyat söz yaradıcılığı prosesinin inkişafında xüsusi rol oynayır. «Azərbaycan dilinin şivələri ədəbi dilin lüğət tərkibinə zaman-zaman yeni-yeni sözlər vermiş və bu proses indi də davam edir. Ona görə də xalq dili, onun şivələri ədəbi dilin daimi zənginləşmə mənbəyidir. Ədəbi dil ehtiyac olduqca dönə-dönə xalq dilindən söz alır, öz ehtiyacının böyük bir hissəsini bu xəzinədəki sözlər hesabına ödəyir, oradan hazır sözlər götürür, şəkilçilərin yaratdığı lüğəvi vahidlər, mürəkkəb sözlər həmişə ona gərəkli olur».[1]

---

[1] B.B.Əhmədov. Azərbaycan dili şivələrində söz yaradıcılığı. Bakı, APİ-nin nəşri, 1987, s. 3.

Tarixi romanlarda dialekt sözlərindən leksik vahid kimi istifadə edən yazıçılar sözdüzəldici şəkilçilərdən, sözlərin müxtəlif şəkildə birləşməsindən istifadə etməklə dialekt sözlərinin mənalarını genişləndirərək onları yeni forma və mənada işlətmişlər. Tərəfimizdən bu sözlər morfoloji və sintaktik yolla düzələn dialektizmlər şəklində qruplaşdırılıb tədqiq edilmişdir.

**Morfoloji üsulla yaranmış dialektizmlər.** Söz yaradıcılığı prosesində bu üsul əsas rol oynayır. Ədəbi dilin bütün inkişaf mərhələlərində klassiklərimiz bu üsuldan istifadə edib dilin yaradıcılıq imkanlarını üzə çıxararaq lüğət tərkibini zənginləşdirmişlər. Tarixi romanlarda işlənən düzəltmə dialekt sözləri ədəbi dildə olan şəkilçilər vasitəsi ilə yaranmışdır. Həmin şəkilçilər iki qrupa – ad və felləri bildirən şəkilçilərə ayrılmışlar.

***Ad düzəldən şəkilçilər.*** Bu şəkilçilər vasitəsilə düzələn əksər sözlər tarixilik baxımından düzəltmədir, çünki onların bir qismini kök və şəkilçiyə ayırdıqda müasir dildə məna vermir. Romanlarda ad bildirən sözlər aşağıdakı şəkilçilərlə işlənmişdir:

*-lıq, -lik, -luq, -luk:* Səməd Cavadla gələn tanımadığı adamları görən kimi *yetiklik* etməyə tələsdi (ƏCY, 23); Bu vaxt Sinəgül dilləndi, baldızına göz vurub nə üçünsə *faqqılıqla* güldü (ƏCY, 97); Belə də *pampaxlıq* olar, *dozaylıx* olar? (MİA, 17).

*-çı, -çi, -çu, -çü:* Bu ürəyinə qara yara çıxmışlar elə *alamançı*, elə nöksədirlər ki, hər ay adamlarını daraşdırırlar camaatın canına (MİA, 16); Mənim də bir əlim harayçıdı, bir əlim *bəlgəçi* (ƏCB, 30).

*-lı, -li, -lu, -lü:* Sən camaat arasında *urvatlısan,* səni eşidərlər (MİA, 220); *İlgiliyəm* xaqanım! (ƏCC, 6); Mənim *yavuqlumsan*, baylardan bay mənəm (ƏCC, 36) və s.

*-unc:* Göytanrım özü soyumuzu bu *utancdan* qurtarsın (ƏCC, 53).

*-gə:* Bu kişi *gəzərgə* adamdı. Gəzib, görüb (ƏCY, 32).

*-daş:* Turqut dədənin məsləhəti və göstərişi ilə *ulusdaşlar* işə başladılar (ƏCC, 89).

***Fel düzəldən şəkilçilər.*** Tarixi romanlarda işlənmiş düzəltmə fellər məna və üslubi funksiyalarına görə diqqəti daha çox cəlb edir. Romanlarda fel düzəldən aşağıdakı şəkilçilər işlənmişdir.

*-la, -lə:* Anası Gümüşbikədən tez durur, həyət-bacanı süpürür, mal qaranı *farağatlayırdı* (ƏCB, 47); Ala toranda vağanıyan taxılı *yolpalamaq* da onların öhdəsindəydi (ƏCC, 180); Gədə, sən də məni *qəzillədin*? – deyə bildi (ƏCC, 8).

*-lan, -lən:* Günorta qoyunlar burada *gürnüşgələnib*, başlarını bir-birinin kölgəsində gizlədirdi (FKÇ, 87); Kişi bu sözlərlə yenidən

*qolaylandı* (ƏCB, 164); Mənim ağır yara almağımdan *quşqulanıb* (ƏCC, 8).

*-laş, -ləş:* Hərəngə bazarına *yavuqlaşmaqlarını* görən Tərlan Məcidə döndü (ƏCY, 24).

*-ın:* Ən cəsur olanlar sahildəcə çimib toz-torpaqdan *arınmış,* sərinləmiş, sonra da sahil boyu o baş bu başa qurulan dəyələrə çəkilib yatmışdılar (ƏCC, 70).

**Sintaktik yolla düzələn dialekt sözlər.** Dilin lüğət tərkibinin zənginləşməsində sintaktik üsulla söz yaradıcılığının mühüm rolu vardır. Bu üsul bədii ədəbiyyatda daha geniş yer tutur, bu da əsərin məzmunu ilə dilin vəhdətini, dilin poetikasının ən gözəl cəhətlərini üzə çıxarmaq üçün tutarlı faktlar verir. Yazıçıların əsərlərinə gətirdikləri dialekt sözlərindən sintaktik üsulla yaranan mürəkkəb sözlər məhz dialekt sözlərindən bu istiqamətdə istifadə etmələri və dialekt sözlərinə poetik vüsət gətirmələridir. Tarixi romanlarda sintaktik yolla düzələn sözlərin aşağıdakı formalarına rast gəldik.

***Mürəkkəb sözlər (adlar).*** Müxtəlıif nitq hissələrinə aid sözlərin birləşməsilə yaranan mürəkkəb sözlərin tərkibi adətən iki isim və ya sifət komponentlərindən ibarət olur. Bu zaman tərəflərdəki hər iki söz ədəbi dil, bəzi birləşmələrdə isə biri dialektə məxsus söz olsa da, onlar bütövlükdə dialekt səciyyəsi daşıyır. Tarixi romanlarda işlənmiş adlardan ibarət mürəkkəb sözlərə aşağıdakıları misal göstərmək olar: Qayalardakı *daşxınası* da rəngini dəyişib narıncı olmuşdu (FKÇ, 137); Bardaş qurub oturan *lopabığ*, ovurdaq, xaşalqarın adama nəzər salıb əmr etdi (FKÇ, 109) və s.

***Söz birləşməsi şəklində formalaşan mürəkkəb sözlər.*** Bədii əsərlərdə müxtəlif nitq hissələrinə aid sözlərin məcazlaşdırılaraq birləşmə şəklində işlənməsi, eyni və ya müxtəlif sözlərin təkrarı ilə yaranan qoşa sözlər cümlələrin obrazlı olmasını təmin edir. Mürəkkəb sözlərin bir qrupunu qoşa sözlər təşkil edir ki, onlar iki komponentdən ibarət olur və belə sözlər dissertasiyada aşağıdakı kimi qruplaşdırılmışdır:

a) eyni söz köklərinin təkrarı ilə düzələn birləşmələr: Lap béridə ağ-boz buludlar *əriş-əriş, arqaş-arqaş* göy üzünü doğrayıb keçirdi (ƏCY, 86); Az sonra dağların arxasından günəşin ilk şüaları, qızılı telləri *çırtım-çırtım* boylanacaq, gecənin zülmət qaranlığını qovacaqdı (ƏCC, 183); Şeypura bənzəyən mavi çiçəklər onun bircə əlçimsiz, bircə buyruqsuz ipək tellərində saçbağı qotazları kimi *sırma-sırma* sarılır, soluxanacan asılıb qalardı (ƏCC, 35) və s.

b) Müxtəlif mənalı sözlərin təkrarı ilə düzələn mürəkkəb sözlər. Belə

qoşalaşan sözlərin bəzən hər iki komponenti dialektə, bəzən isə biri ədəbi dilə, ikincisi isə dialektə məxsus olur: Payızın son ayında Xudafərin körpüsündən keçən Sultan Yaqubun *qəflə-qatırı* Araz qırağı yolla Beyləqan tərəfə yol almışdı (FKX, 78); Bir də gördün bu yağan qar üstələdi, *yol-iriz* bağlandı (ƏCY, 300); Qızdırmam qalxmışdı, *sayır-bayır* vururdum (ƏCY, 15) və s.

c) Sinonim sözlərin qoşalaşması ilə düzələn mürəkkəb sözlər. Tarixi romanlardakı bu tipli sözlərin tərəflərindən biri klassik ədəbi dilimizdə müəyyən dövrə qədər işlənsə də, sonralar ədəbi dildən çıxmış, lakin dialektlərdə izlərini saxlamış qədim türk sözləridir: Və bu, *el-ulus* gözündən uzaqda, kahada baş verirdi (ƏCC, 35); Qoy bu uşaqsifət, arvadsifət şahzadənin *bağır-öfkəsi* partlasın, daha yaxşı (ƏCB, 80); Ağaşərifin *mal-madarı* gəlib çıxıb qardaşı oğluna, get sənə düşəni al, dolandır balalarını (ƏCY, 86) və s.

***Tərkibi fellər.*** Bu fellər analitik yolla köməkçi və müstəqil fellərin adlara ismin hal şəkilçiləri vasitəsilə birləşməsi üsulu ilə yaranır, əksəriyyəti də idiomatik ifadə şəklində semantikləşir, emosionallıq qazanır. Tarixi romanlarda işlənmiş tərkibi fellərin bir qisminin ad komponentini dialekt sözləri təşkil edir. Onlara aşağıdakı nümunələri misal göstərmək olar: Əziz bacım, sən ərinə *qahmar çıxmaqnan* bizi məhv edəcəksən (ƏCB, 57); Nəcəfin adamlarını üstələyə bilməsəniz, atlılar *hovunuza gələr* (MİA, 75); *Həqiqətə irişmək* üçün yolun məhəbbətdən keçir (ƏCB, 118); Sultannan çox oğlun mənə *yağı kəsilərdi* (FKÇ, 127); Çoxdan boyunduruq görməmişdilər, boyunları *fır bağlamışdı* (CBS, 82) və s.

**2.2. Romanlarda işlənmiş dialekt sözlərinin leksik-semantik xüsusiyyətləri.** Ədəbi dilə məxsus olan leksik-semantik əlaqələr dialekt və şivələrə də xasdır. Burada da çoxmənalılıq, omonimiya, sinonim cərgələr, antonim və s. hadisələr mövcuddur. Tarixi romanlarda bu qrup sözlərin demək olar ki hamısına rast gəldik.

**Sinonimlər.** Sinonimlər tarixi kateqoriya olaraq bütün dillərdə mövcuddur. Müxtəlif fonetik tərkibə malik olan sinonimlər dilin lüğət tərkibinin əsas məna kateqoriyasından biri kimi ümumi bir məna ilə əlaqədardır. Dilin zənginliyi sinonimlərin zənginliyi ilə ölçülür. Fikrin ekspressiv-emosional ifadəsinə xidmət edən sinonimlərdən bədii əsərlərdə daha çox istifadə olunur. Bədii dildə fəaliyyəti daha da genişlənən sinonim cərgələrin zənginləşməsi mənbələrindən biri də dialekt və şivələrdir. Tarixi romanların dilində işlənmiş və dialekt sözləri hesabına genişlənmiş sinonim cərgələr əsasən ad və fellərdən ibarətdir.

***Adlardan ibarət olan sinonim cərgələr.*** Tarixi romanlarda adlardan

ibarət aşağıdakı sinonim cərgələrə təsadüf etdik:

Ana - məmə - ciyi. *Ana*, deyirsən sabah yağış yağacaq? (FKX, 11); Nağayra bilərsən, ay *ciyi*? (ƏCY, 17); Soltannisə, bəs *məmən* hanı? (ƏCY, 242).

Acizlik - keylik - pampaxlıq - dozaylıq: Belə də *pampaxlıx*, *dozaylıx* olar? (MİA, 17).

Cavan - gənc - yaş: Əslində heç də *cavan* olmayan Güntəkin bir qədər süst təbiətli idi, Alptəkin qızğındır, *yaşdır* ... (ƏCC, 14).

Cəsur - igid - ər - ərən - cəngavər - qəhrəman - batır: Ər-igidin işi düyün düşər bir az da (ƏCC, 9); Meydanın dairəsində on iki *ərən* oturmuşdu (ƏCC, 139); Düzsə bu *batır* cüssəli ... Xaqana sığınmamız yaxşıdı (ƏCC, 49).

Çörək - əppək: Qayınxatınıma çörək apardım, dəyişdim yaymeynan, neynəyim a başuva dönüm, kişi təndir *əppəyi* istəyir, bişirirəm (ƏCB, 37).

Çadır - xeymə: Sonra şah təkcə qurulmuş qızıl qübbəli, güləbətin qotazlı yaşıl *çadırın* yanına gəldi (ƏCB, 83); İsmayıl bəy *xeymədə* tək qaldı (ƏCB, 86).

Çəpər - hasar - divar - barı: Dal həyətlə ön həyətin arasını şəbəkəli taxta *hasar* kəsirdi (ƏCB, 125); *Barını* nəm yıxar, ananı qəm (ƏCB, 69).

El - oba - yurd - ulus: Və bu *el-ulus* gözündən uzaqda, kahada baş verirdi (ƏCC, 35).

Əvvəl - qabaq - siftə: Ağam istəyir ki, Nəcəf bəydən *qabaq* Dərbəndə çatsın (MİA, 159).

Zəif - incə - yuxa: Sonralar xaqanlıq *yuxa* düşdü (ƏCC, 48); Bütün tayfası onun at, dəvə dərisindən aşılayıb ipək kimi yumşalda bildıyi boz, boz-mixəyi, incə, nazık kösələrlə tikdiyi *yuxa* şalvar və köynək geyirdi (ƏCC, 22).

***Fellərdən ibarət sinonim cərgələr.*** Romanların dilində adlara nisbətən feli sinonim cərgələr azdır. Həm də bu sinonim cərgələrin dialekt komponentlərini dialekt və şivələrdə izlərini saxlamış müasir dil baxımından arxaikləşmiş sözlər təşkil edir. Nümunələr:

Qorxmaq - üşənmək - qusqulanmaq: Mənim ağır yara almağımdan *qusqulanıb*, atdan yıxılacağımdan *qorxub* (ƏCC, 8); Nədənsə yenə *üşəndi*, elə bil onu kimsə izləyirdi (MİA, 168).

Çatmaq - yetişmək - qovuşmaq - irişmək: İnsan təriqətə qovuşub ikinci dəfə doğulmayınca *haqqa irişmir*. Mənəvi cəhətdən isə yenidən dünyaya gəlir, *haqqa irişmiş olur* (ƏCB, 138).

Romanlarda yavuqlaşmaq - yaxınlaşmaq, əyləməg - saxlamaq - ləngimək, gəbərmək - ölmək, manşırlamaq - nişanlamaq, farağatlamaq -

rahatlamaq və s. kimi sinonim fellər də işlənmişdir.

**Omonimlər.** Fonetik tərkibinə görə eyni, mənaca müxtəlif olan omonimlər tarixi kateqoriya kimi dildə həmişə mövcuddur. «Omonimlik müxtəlif dil hadisələri ilə: çoxmənalılıq, fonetik hadisələrlə təsadüfi fonetik oxşarlıq, təsadüfi dəyişilmə, qrammatik hadisələrlə konversiya, alınmalar hesabına yarana bilir»[1].

Omonim sözlər ədəbi-bədii yaradıcılıqda geniş istifadə edilən bədii ifadə vasitələrindəndir. Yazıçılar omonimlər vasitəsilə dildə ahəngdarlıq, musiqilik yaradır və dili bədii şəklə salırlar. Omonimlər leksik-semantik söz qrupu kimi sinonimlərlə də sıx bağlıdır. Dialekt leksikası da hər hansı bir yazıçının dilinə omonim məna qazandırır, bu mənalar çox vaxt yazıçının üslubu, obrazların dilinin fərdiləşdirilməsi ilə bağlı olur.

Tədqiq etdiyimiz romanlarda aşağıdakı omonim sözlər diqqəti cəlb edir: barı - divar - hasar, barı - hücrə; ər - arvadın əri, ər - igid, qəhrəman; kişi - arvadın əri; kişi - insan, adam; tel - saçın hər bir dənəsi, tel - düyü unu və şəkərdən bişirilən şirniyyat növü; yaş - doğuluş, ömür, yaş - cavan, gənc və s.

**Antonimlər.** Dilin lüğət tərkibində mövcud olan sözlərin bir qismi öz mənalarına görə bir-biri ilə ziddiyyət təşkil etdikləri üçün müəyyən semantik sistem yaradır ki, belə sözlər antonimlər adlanır. Mənasına görə ziddiyyət bildirən antonimlər sinonimlər kimi bədii dilin ən işlək leksik-semantik kateqoriyalarındandır. Yazıçılar əsərlərində təzadlı lövhələr yaratmaq, əşya və hadisələr arasında münasibətlərin daha dəqiq müəyyənləşdirilməsi üçün antonim sözlərdən istifadə edir. Antonimlər yazıçının təsvir dilini daha da cavanlaşdırır, onun ifadə təsirini artırır. Dildəki bütün antonimlərin ifadə etdikləri ziddiyyətlərin dərəcəsi eyni olmur, buna görə də antonimlər iki yerə: tam və nisbi antonimlərə bölünür. Mütləq antonimlər eyni mənanın zidd cəhətlərini semantik cəhətdən əks etdirən sözlərin qoşalaşdırılması, yanaşı işlədilməsi ilə yaranır. Nisbi antonimləri mətni antonimlər də adlandırırlar. Çünki onlar yazıçılar tərəfindən müəyyən üslubi məqsədlər üçün işlədilir, mənaca bir-birinin şərti və nisbi ziddini təşkil edən sözlər olur.

Tarixi romanlarda həm nisbi, həm də mütləq antonimlər işlədilmişdir: “qara bir ləkə, ağ bir yalan”, “arvadlı-kişili”, “böyüklü-kiçikli”, “qura-dağıda”, “Sevinc və kədər”, “Uzun Həsən, gödək Əhməd”, “Köhnə bazar, təzə nırx”, “Şirin cəhənnəm”, “Azad şəhərin qara səhəri” və s.

---

[1] С.А.Магеррамова. Парадигматические отношения в лексике русского и азербайджанского языков. Баку, БГУ, 2002, с.202.

## III Fəsil. 1960-1980-ci illər Azərbaycan tarixi romanlarında dialekt formaları və arxaik leksika

**3.1. Bəzi fonetik və morfoloji formaların işlənməsi.** Ədəbi dillə dialektlər qarşılıqlı əlaqədə inkişaf edir. Hər bir ədəbi dilin formalaşmasında, onun normalarının əsasında müəyyən dialekt durur, bunu dilin daxili imkanları ilə yanaşı konkret mərhələdə xalqın maddi, mənəvi, sosial həyatı, dövlətçilik amili həll edir. Bədii dilə dialektlərin təsiri əsasən leksik cəhətdən özünü göstərir. Lakin bədii əsərlərdə dialektlərə məxsus fonetik və morfoloji xüsusiyyətlərə də rast gəlmək mümkündür. Bunların bəziləri dialektlərin bir çoxuna məxsusdur, orta əsr yazılı abidələrində, klassik ədəbi dildə də işlənmişdir. Tədqiq etdiyimiz tarixi romanlarda da belə fonetik və morfoloji xüsusiyyətlərə təsadüf etdik.

**Fonetik səviyyədə olan dialekt formaları.** Dialekt və şıvələrdə rast gəlinən fonetik xüsusiyyətlər müasir yazılı ədəbi dil üçün norma olmasa da, tarixi fonetika ilə bağlı mübahisəli məsələlərə aydınlıq gətirə bilər. Həmin fonetik formalar aşağıdakılardır:

*ə > a əvəzlənməsi:* Sən get dincəl, mən də *xancalın* qəbzəsini düzəldib gəlirəm (MİA, 11); Dərgahqulu *qədəş* gəldi, mən getdim (ƏCB, 67).

*a > o dəyişməsi:* Bir dəst üst paltarı, bir nişan üzüyü, bir də kəlağayı ilə *çarşov* (ƏCB, 150); Keçən ay Gülüstanda gizlənməyə çalışan möhtərəm atanızı şahi-çavanbəxtimiz Cabanı kəndinin *yovuqluğunda* qarşıladı (ƏCB, 79).

*e > ö əvəzlənməsi:* İndi vergini Nəcəf bəyə yığır, onda Hacı Çələbiyə verəcəyik, elə *döyül*? (MİA, 152).

*ö > o əvəzlənməsi:* Bütün bunlar ev başına növbətilə görülür, *nobat* kimə düşsə, həmin ailənin bir üzvü naxıra gedirdi (ƏCB, 36).

Söz ortasında samit qoşalaşmasına da romanlarda rast gəlinir: Bəs onda kimə tabe olsun, öz *paççahımızı* tikək. (MİA, 162).

Romanlarda söz əvvəlində sait artımı hadisəsinə də təsadüf edilir: Bir *irağbətli* müştəri tapsın (ƏCY, 45); Heç bir *urub* keçməmiş fərman hazır oldu (ƏCB, 230).

Romanlarda nadir hallarda söz önündə sait və samit səslərin düşməsi də müşahidə olunur: Dur get gətir *şağımı* mollaxanadan (ƏCB, 68); Otur gözlə ki, *şağım* haçan özü gələcək (ƏCB, 68); *Ulqumunu* sığadı (ƏCC, 57).

**Morfoloji səviyyədə olan dialekt formaları.** Tarixi romanlarda Azərbaycan dilinin dialekt və şivələri üçün xarakterik olan bəzi morfoloji xüsusiyyətlərə də rast gəlinir.

İkinci şəxs tək mənsubiyyət şəkilçisində "n" samitinin "v" samiti ilə

əvəzlənməsi: Bu saat *başuva* dönüm (ƏCB, 91); Allah *zəncirüvü* üzsün yalansa (ƏCY, 120); Onda *canuvu* hara qoyaceysən? (ƏCB, 91).

Qəti gələcək zamanın II şəxsində *-acaq*, *-əcək* şəkilçisi ilə yanaşı, cənub qrupu dialektlərinə xas olan *-as*, *-əs* şəkilçisinin işlənməsi: Əşi, arvadımın adını çəkməyə də *qoymuyassan*? (FKÇ, 191).

Indiki zamanın analitik yolla ifadə forması: Can qardaş, yoldan çıx. Saleh sövdəgərin karvanı *gələ var* (FKÇ, 185).

Dialektlərimizin əksəriyyəti üçün səciyyəvi olan felin bacarıq formasında "bil" sözünün inkarlıq bildirən *-ma*, *-mə* şəkilçisi qəbul etdikdə assimilyasiyaya uğrayaraq *-mma*, *-mmə* şəkilçisinə çevrilməsi: O bu tezliklə gəlib bura *çıxammaz* (MİA, 313).

"Nə üçün" sual əvəzliyinin *nöş, nöşün, neyşə, nəyşə, neşin* variantlarında işlənməsi: *Nöş* vermirəm?, *Nöşün*? *Nöşünü* yoxdu ki, qızım (ƏCB, 25); Bıy başıma xeyir, axı həyətdə *neyşə* durmuşuq? (ƏCY, 17).

"Daha" ədatının *day*, *dayı* formasında işlənməsi: Ağəz, *day* hələm düşman gəlib qapının ağzını kəsdirməyib ki! (ƏCB, 68); Işsiz otursam elə billəm ki, *dayı* bu dünyanın haqq-hesabını çürütmüşəm (ƏCB, 297) və s.

Romanların dilində "nə" sual əvəzliyinin müxtəlif sözlərlə birləşməsinə, "o" işarə əvəzliyinin isə "irəli" sözü ilə birləşərək müxtəlif formada işlənməsinə də təsadüf olunur: *Nağarmaq* olar ki? (MİA, 230); *Neynək* dedim – təki Şirvan Seyyidsiz qalmasın (ƏCY, 15); Zarafat eləyirdim az, sən də özündən söz qayırma, *neyşim* var səniynən (ƏCB, 175); *Oyralı* elədiyimiz söhbətdən sonra, hər gün, hər saat fikirləşmişəm (MİA, 54).

Ə.Cəfərzadənin "Yad et məni" romanında ədəbi dildə XIX əsrə qədər işlənmiş, lakin sonralar arxaikləşmiş və dialektlərdə izini saxlamış "dona qalmaq" feli də işlənmişdir: Bu saat bu ceyranı azad eləyin – deyə yerindən qalxdı. Hamı təəccübündən *dona qaldı* (ƏCY, 313).

**3.2. Tarixi romanlarda izlərini saxlamış arxaik sözlər.** Azərbaycan ədəbi dilinin yazılı abidələrinin lüğət tərkibində müasir dil baxımından arxaik sözlərə də rast gəlmək olur. Zaman keçdikcə bu sözlərin bir qismi fəallığını itirsə də, dildən çıxmır, yazıçılar müəyyən üslubi məqsədlə bu arxaik sözlərdən istifadə edirlər. «Arxaik sözlər canlı istifadədən çıxsalar da, dildən tamamilə çıxmır, əksinə onlar leksikanın ən yüksək leksik qatının sözləri kimi dildə qalır»[1].

Arxaik sözlər leksik-semantik, fonetik, qrammatik olaraq üç qrupa ayrılır:

---

[1] Арнолд У.В. Стилистика английского языка, Л.: Наука,1973. ст. 224.

1. Semantik arxaizmlər: Bura dilin inkişaf mərhələlərində mənaca dəyişikliyə uğrayan sözlər daxildir: *ağır* (qiymətli, zəngin), *ayaq* (qədəh, badə), *qaba* (böyük, yekə), *ər* (kişi, insan), *ulu* (böyük) və s.

2. İlkin mənalarını saxlamaqla heç bir fonetik və qrammatik dəyişikliyə uğramayan sözlər: *binar* (bulaq), *dün* (gecə), *küz* (payız), *yağma* (talan) və s.

3. Fonetik arxaizmlər – müasir dövrümüzə çatana kimi müəyyən fonetik dəyişikliyə uğramış sözlər: *gözətmək* (gözləmək), *urmaq* (vurmaq), *yudmaq* (udmaq) və s.

Tarixi romanların dilində işlənmiş bir qrup sözlər müasir Azərbaycan ədəbi dili üçün norma səviyyəsində olmasa da, dialekt və şivələrdə işlənir ki, onlar da fel və adlardan ibarətdir:

1. Fellər: İndi dinləyəlim. – Nə *aydır* indi ayğuçu (ƏCC, 48); O, məsləhət şurasını yığıb *gənəşmək* istəyirdisə də, bir qərara gələ bilmirdi (MİA, 213); *Həqiqətə irişmək* üçün yolum məhəbbətdən keçir (ƏCB, 118); Allah qoysa söz alarsan, xeyir işimizi başlayanda *ismarrarsan* gəlləm (ƏCB, 83).

2. Adlar: Fyodorun furqonu doğrudan da saz idi. *Banları* möhkəm və yüksək idi (ƏCY, 177). Meydanın dairəsində on iki *ərən* oturmuşdu (ƏCB, 139); Meydana girəndə *əsrimiş* nərə bənzəyir (ƏCB, 235); Dağın *güz* yerində ağaclar qızılı rəngə çalırdı (MİA, 29); Güngörməzdə gözdən *iraq olduq* (ƏCB, 41) və s.

## NƏTİCƏ

Dialekt leksikası dilin daxili imkanları hesabına zənginləşməsinin əsas mənbələrindən biridir. Azərbaycan dilinin tərkib hissəsinin bu layını təşkil edən dialektlər bütün inkişaf mərhələlərində ədəbi dillə əlaqədə olmuş, onun leksik, qrammatik normalarının formalaşmasında müəyyən rol oynamışdır. Dialektlər həm də canlı danışıq dilinin funksional çalarlarını, ona məxsus səciyyəvi cəhətlərini özündə əks etdirərək, dialekt leksikasının, dialekt formalarının canlı dilə və ədəbi dilə keçməsində mənbə rolunu oynamışdır. Odur ki, dialekt leksikasını ədəbi dillə qarşılıqlı şəkildə öyrənmədən dil vahidlərinin struktur və funksional cəhətlərini elmi əsasda vermək mümkün deyil.

Dialekt faktlarının toplanmasında, qorunmasında, yazılı şəkildə təsbit olunmasında bədii ədəbiyyatın əvəzsiz rolu vardır. Burada dil vahidləri bədii-estetik funksiyasına görə seçilir, hətta dialektə məxsus sözlər, formalar poetik funksiya daşıya bilir.

Tarixi dialektologiyanın, ədəbi dillə dialektlər arasındakı əlaqələrin

kompleks şəkildə öyrənilməsi, dialektoloji lüğətlərin tərtibi üçün bədii əsərlərdən dialekt sözlərinin toplanıb tədqiq edilməsi vacib məsələlərdən biri olaraq öz aktuallığını saxlayır. Tədqiqat obyektimiz olan tarixi romanlarda (Ə.Cəfərzadə: "Aləmdə səsim var mənim", "Yad et məni", "Bakı-1501", "Cəlaliyyə"; İ.Şıxlı: "Dəli Kür"; M.İsmayılov: "Ağ yapıncı", "El üçün yan"; C.Bərgüşad: "Siyrilmiş qılınc; F.Kərimzadə: Xudafərin körpüsü" və "Çaldıran döyüşü") işlənən dialekt və köhnəlmiş sözlər tədqiq edilərək aşağıdakı nəticələrə gəlinmişdir:

1. Tarixi romanlarda yer almış və geniş dairədə işlənən dialektizmlər dialekt leksikasını təmsil etsə də, onların bir qismini konkret bir bir dialekt qrupuna aid etmək, canlı danışıq dili sözlərindən fərqləndirmək çətindir. Bu tipli dialekt sözlərinin böyük bir qismini (qahmar, qənşər, əlçim, doqqaz, dədə, simsar, mağar, anşırmaq, devikmək, gəvələmək, xoşunlaşmaq, əyləmək, yaşmanmaq və s.) digər bədii əsərlərdə də tapmaq mümkündür.

2. Konkret bir dialektə, yaxud dialekt qrupuna aid olub məhdud dairədə işlənən leksik dialektizmlərin (alamançı – acgöz; arığaz – arıq; cisbər – cür; covğa – tayfa, nəsil; dozaylıx – acizlik, keylik; dübbə – tərs, inadkar; irsız – həyasız, sırtıq; qütəbbər – ədalı, lovğa; sitizə – həyasız; yanşaq – çoxdanışan, uzunçu və s.) mənası çox vaxt geniş oxucu kütləsi üçün anlaşılmazdır. Bəzən isə həmin sözlərin mənasını hətta mətndən müəyyənləşdirmək çətin olur. Bu qəbil dialekt sözlərini şübhəsiz ki, konkret bir dialektə mənsub olub, ona yaxından bələd olan yazıçılar işlədirlər ki, bu da tədqiq obyektimiz olan tarixi romanlarda öz əksini tapmışdır.

3. Yazıçıların dialekt sözlərini bədii ədəbiyyata gətirmələri onların işlənmə dairəsini genişləndirmiş, poetik mühitdə üslubi cəhətlərini üzə çıxarmış, bu isə belə sözlərin tədricən xalq dilinə keçməsini təmin etmişdir. «Sözlərin bədii dil vasitəsilə canlı danışıq dilinə keçməsi onların semantik cəhətdən yeniləşməsini, leksik-frazeoloji əlaqələrdə iştirakını təmin etmiş olur»[1]. Tədqiqat göstərdi ki, yazıçılarımız dialekt sözlərindən bədii mətndə fikri daha dəqiq, düzgün ifadə etmək üçün sinonomik bir vasitə kimi də istifadə etmişlər: dinşəmək – qulaq asmaq, pusmaq; donuşmaq – incimək; eymənmək – qorxmaq; əvədimək – haldan düşmək; perikmək – qorxmaq; şıvranmaq – yaltaqlanmaq; unamaq – başa düşmək; üşənmək – qorxmaq, şübhələnmək və s.

Həmin sözlərin əksəriyyətinin məcazi mənada, yəni metafora, təşbeh

---

[1] М.Ш.Ширалиев. О диалектной основе азербайджанского литературного языка / Вопросы диалектологии тюркских языков, Баку, Изд. Академии наук Азербайджана, 1958, с. 11-22.

kimi işlənməsi onların bu mühitdə poetik sözlərə çevrilə bilməsini göstərir.

4. Məlum olduğu kimi ədəbi dilin lüğət tərkibinin terminoloji fondunun zənginləşməsi mənbələrindən biri də dialekt leksikasıdır.

Bu mənada tarixi romanlarda xalqın gündəlik həyatı – məişəti, təsərrüfatı, onu əhatə edən mühitlə əlaqədar müxtəlif bitki, ağac adları ilə bağlı tədqiqata cəlb etdiyimiz onlarla söz vardır ki, onlar terminoloji fondun zənginləşməsində müstəsna rol oynayır. Kənd təsərrüfatı və onunla bağlı müxtəlif əşya, alət adları, bitki, müxtəlif ot, gül, ağac adlarını ifadə edən zəngin dialekt leksikasından ədəbi dilə – onun terminoloji fonduna gətirilən sözlərin hamısı xalq dilinə keçib ümumişləklik tapmasa da, konkret sahə terminologiyası kimi işlənmiş və işlənməkdədir.

Araşdırmalar göstərdi ki, romanların dilində işlənmiş dialekt və şivələrə aid söz terminlər müxtəlif leksik laylara aiddir:

–Geyim bəzək əşyalarının adlarını bildirən söz-terminlər: boğazaltı, cəcix' (qızıl boyunbağı), ciyciyə (qadın bəzək əşyası), çutqu (qadın yaylığı), daqqa (papaq), düryə (qadın örtüyü, kəlağayı), gərdənbənd (boyunbağı növü) və s.

–Yemək, eləcə də məişət və təsərrüfatda işlənən əşya adlarını bildirən söz-terminlər: püsgəndə (qabığı soyularaq qurudulan əncir), şirbədüşəndə (qaynadıldıqdan sonra qurudulan əncir), tel (düyü unu və şəkərdən bişirilən tel şəklində ağ və kövrək şirniyyat növü), cürdək (darboğazlı su qabı), dəhmərdə (iri, dərin boşqab), gorda (xəncərşəkilli iri bıçaq), hür (içərisinə qab-qacaq yığılan xurcun, kisə), qəməlti (böyük bıçaq), qənarə (kəsilmiş heyvanların cəmdəyini asmaq üçün iri qarmaq), yaxdan (sandıq) və s.

–Coğrafi terminlər: cəzir (səhra, düzəngah), çayır (su çıxan yerdə əmələ gələn kiçik göl), gicov (burulğan), gözəh (bataqlıq), tınaq (qayanın ən hündür nöqtəsi), yastan (düzən, düzənlik) və s.

5. Tarixi romanlarda düzəltmə dialekt sözləri dildə mövcud olan şəkilçilər vasitəsilə yaranmışdır.

Bədii əsərlərdə sözlərin semantik inkişafında, yeni-yeni məcazi mənaların yaranmasında yazıçıların böyük rolu vardır və onların bu bacarıqları əsərin məzmunu ilə dilin vəhdətini, dilin poetikasının ən gözəl cəhətlərini üzə çıxarmaq üçün tutarlı faktlar verir. Sənətkarlarımızın əsərlərinə gətirdikləri dialekt sözlərindən sintaktik üsulla yaranan mürəkkəb sözlər məhz dialekt sözlərindən bu istiqamətdə istifadə etmələri və dialekt sözlərinə poetik vüsət gətirmələridir.

Tarixi romanlarda dialekt sözləri ilə bağlı qoşa sözlərdən də yeri düşdükcə istifadə edilmişdir. Bunların bir qismi dialektə məxsus leksik

vahidlərin təkrarı ilə düzələn qoşa sözlərdir. Bu qoşa sözlər çox vaxt məcazi mənada, poetik ifadə vasitəsi kimi bədii təsvirlərdə işlənmişdir. (Arqaş-arqaş, çakıl-çakıl, çırtım-çırtım, çövkə-çövkə, səngin-səngin).

Mürəkkəb fellər əsasən analitik yolla – köməkçi və müstəqil fellərin adlara ismin hal şəkilçiləri vasitəsilə birləşməsi üsulu ilə yaranır, çoxusu da idiomatik ifadə şəklində semantikləşir, ekspressivlik, emosionallıq qazanır.

Bədii dilin, üslubun yaradıcılarının xidmətləri ondadır ki, dilin qrammatik, leksik, semantik qanunlarına, ənənələrinə, daxili qanunauyğunluqlarına, ruhuna söykənməklə yeni sözlər, ifadələr yaratmış, məcazi mənaların hüdudlarını genişləndirib dialekt sözlərini bədii mühitdə poetizmə çevirə bilmiş, dilin bütün səviyyələrini öz süzgəclərindən keçirə-keçirə xalqın malı edə bilmişlər. Yazıçı sənəti yaradıcılıqdır və dil materialı bu yaradıcılığın formasıdır. «Dilin hər bir hadisəsi konkret funksional yaradıcılıq şəraitində poetik xarakter qazana bilər»[1].

6. Tədqiqatdan aydın oldu ki, dilin zənginliyinə, fikrin ekspressiv-emosional ifadəsinə xidmət edən sinonimlərdən bədii əsərlərdə daha çox istifadə olunur. Bədii ədəbiyyatda sinonimlər, sinonim cərgələrin əsas xüsusiyyətləri onların ümumxalq dili ilə bağlılığı və eyni zamanda fərdi üslubi cəhətindədir.

Tarixi romanların dilində də bəzi sinonim cərgələr dialekt sözləri hesabına (ata – dədə; acizlik, keylik – pampaxlıq, dozaylıq; çörək – əppək; çadır – xeymə; dəsmal – məhrəba; küçə – doqqaz; nişanlı, adaxlı – yavuqlu, deyikli və s.) zənginləşmişdir. Belə sinonim cərgələr əsasən adlar və fellərdən yaranır. Tarixi romanlarda adlara nisbətən feli sinonim cərgələr azlıq təşkil edir. Həm də bu sinonim cərgələrin dialekt komponentlərini ən çox dialekt və şivələrdə izlərini saxlamış, müasir dil baxımından arxaikləşmiş sözlər təşkil edir. Ədəbi dildəki çatmaq, yetişmək, qovuşmaq felinə sinonim kimi *irişmək*, *irmək* felləri də tarixi romanlarımızda tarixi koloritlə bağlı sıx-sıx işlənmişdir.

7. Azərbaycan ədəbi dilinin bütün inkişaf mərhələlərində və ədəbi-bədii yaradıcılıqda omonimlərdən həmişə istifadə edilmişdir. Dialekt leksikası da hər hansı bir yazıçının dilində omonim məna qazana bilər, bu mənalar çox vaxt yazıçının üslubu, obrazların dilinin fərdiləşdirilməsi ilə bağlı olur.

Tarixi romanlardan gətirdiyimiz nümunələr göstərdi ki, həm sinonim cərgələr, həm də omonim sözlər əsasən vaxtilə klassik ədəbi dildə işlənmiş, sonralar ədəbi dildən çıxaraq dialekt və şivələrdə qorunan arxaik

---

[1] Виноградов В.В. История русского литературного языка. М.: Наука, 1978, 318 с.

vahidlərdən ibarətdir. Tarixi hadisələri, şəxsiyyətləri qələmə alan yazıçılarımız xalqın tarixi düşüncəsi ilə bağlılığın nadir nümunələrini ən qədim və orta əsr yazılı abidələrlə səsləşən söz və ifadələri əsərlərinə gətirməklə yaratmış, hətta məhdud məhəlli nitq ilə xəlqilik düşüncəsini əyaniləşdirə bilmişlər.

Tarixi romanlarda hər iki komponenti dialekt sözlərindən ibarət antonim qoşalara təsadüf edilmir. Komponentlərdən biri ədəbi, digəri dialekt sözlərindən ibarət olur. Vaxtilə qədim və orta əsr abidələrində işlənmiş, lakin sonralar ədəbi dildən çıxmış, dialektlərdə qalmış arxaik sözlərdə antonimlik daha çox müşahidə edilir (sağ - sayru, sayru - əsən).

8. Bədii dilə dialektlərin təsiri əsasən leksik cəhətdən özünü göstərir. Lakin bununla yanaşı, dialektlərə məxsus fonetik və morfoloji xüsusiyyətlərə də bədii əsərlərdə rast gəlmək mümkündür. Məsələn xancal (xəncər), döyül (deyil), nobat (növbət), paççah (padşah), uruzgar (rüzgar), irast (rast), atova (atana), anova (anana), qoyumuyassan (qoymayacaqsan), dona qalmaq (donub qalmaq) və s. Bunların bəziləri dialektlərin bir çoxuna məxsusdur, orta əsr yazılı abidələrində və klassik ədəbi dildə də işlənmişdir.

9. İlk anadilli yazılı abidələrimizin lüğət tərkibində müasir dil baxımından arxaikləşmiş onlarla sözə rast gəlmək olur. Zaman keçdikcə bu sözlərin bir qismi fəallığını itirsə də, dildən tamamilə çıxmır, dilin passiv lüğət fonduna keçir, arxaizmlər, tarixizmlər kimi qalır, dialekt və şivələrdə izlərini saxlayır.

İstinad etdiyimiz mənbələr göstərdi ki, müasir ədəbi dilimiz üçün norma səviyyəsində olmayan arxaik sözlərin bir qismi canlı danışıq dilində, böyük bir qismi isə dialekt və şivələrdə qorunmaqdadır: imrənmək (sevmək, güvənmək), gənəşmək (məsləhətləşmək), gəvəzələmək (çox danışmaq, boşboğazlıq etmək), irişmək (yetişmək, çatmaq), bay (varlı, zəngin), əsən (sağ-salamat), əsri (qorxmaz, qızğın), sayru (xəstə) və s.

Yazıçılarımız bu sözlərdən müxtəlif üslubi məqsədlərlə istifadə etməklə müasir oxuculara həm dilimizin qədimliyini sübut edir, həm də öz janrlarına bu vasitə ilə tarixilik ruhu gətirməklə, qədim türk sözlərinə sanki yeni həyat verirlər.

Fikrimizcə bu tip tədqiqatlar gələcəkdə dil tarixi, ədəbi dildə norma məsələləri, qədim türk sözləri, arxaizmlər, dialektoloji lüğətlərin daha mükəmməl hazırlanması işi üçün faydalı ola bilər.

**Dissertasiyanın mövzusuna dair nəşr olunmuş məqalə və tezislər**

1. Azərbaycan şivələrində söz yaradıcılığı. Dil və ədəbiyyat: Nəzəri, elmi, metodik jurnal, 1(23), Bakı, 1999, s.24-26.
2. Tarixi romanlarda işlənmiş şivə sözləri. Tədqiqlər (II), AMEA Nəsimi adına Dilçilik İnstitutu, Bakı, 2004, s.111-117.
3. 1960-80-ci illər tarixi romanlarında işlənmiş dialekt sözlərinin leksik-semantik xüsusiyyətləri (sinonimlər, omonimlər). Elmi axtarışlar (XV), AMEA Folklor İnstitutu, Bakı, 2005, s.241-253.
4. 1970-80-ci illərin tarixi romanlarında dialektlərə məxsus bəzi fonetik və morfoloji formaların işlənməsinə dair. Dilçilik məsələləri, 1(2), AMEA Nəsimi adına Dilçilik İnstitutu, Bakı, 2005, s.145-151.
5. 1970-80-ci illər Azərbaycan tarixi romanlarında dialekt və şivələrdə izlərini saxlamış arxaik sözlər. Dil və ədəbiyyat: Beynəlxalq elmi-nəzəri jurnal, 4(46), Bakı, 2005, s.20-25.
6. 1960-80-ci illərin tarixi romanlarında sintaktik üsulla yaranmış dialekt sözləri. Azərbaycan Dövlət Pedaqoji Universitetinin Xəbərləri, Humanitar Elmlər Seriyası, № 4, Bakı, 2006, s.161-167.
7. 1960-80-ci illərin tarixi romanlarında termin səciyyəli dialektizmlər. Filologiya məsələləri, № 3, AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu, Bakı, 2008, s.122-135.
8. Архаизмы в диалектах Азербайджана (на материале исторических романах 1970-80 годов) "Формирование Казахской государственности и историко-культурные ценности туркского мира". Материалы международной научно-практической конференции, том III, Шымкент, 2009, с.89-93.
9. Bədii ədəbiyyatda dialektizmlərin işlənmə dairəsi. "Müasir elmin aktual problemləri" Respublika elmi konfransının materialları, Lənkəran, 2010, s.142-144
10. Диалектная лексика в языке исторических романов азербайджанских писателей. Актуальные проблемы гуманитарных и естественных наук, 4(27), Москва, 2011, с.192-197.
11. Bədii ədəbiyyatda izlərini saxlamış arxaik səciyyəli dialektizmlər. "Azərbaycanın inkişaf strategiyası və aktual elmi problemlər" Respublika elmi konfransının materialları, Lənkəran, 2011, s.140-142.
12. 1960-1980-ci illərin tarixi romanlarında adlardan ibarət dialekt sözlərinin işlənmə dairəsi. Filologiya məsələləri, № 6, AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu, Bakı, 2011, s.38-48.

**Фейзиева Р.М.**

# Диалектная лексика в языке азербайджанских исторических романов (на основе романов 1960-1980 годов)

## Резюме

Диссертационная работа посвящена лингвистическому анализу диалектных слов, собранных из исторических романов азербайджанских писателей 1960-1980 годов.

Актуальность, цель и задачи, методы и источники исследования, теоретическая и практическая значимость работы и информация о ее апробации представлены в разделе «Общая характеристика работы».

В введении диссертации рассматривается значение диалектной лексики в развитии литературного языка.

Результаты исследования представлены в трех главах. В первой главе диссертации «Классификация диалектных слов, встречаемых в исторических романах 1960-1980 годов, по сфере употребления» рассматриваются пути перехода диалектных слов в литературный язык и объясняются сферы их распространения, проанализированы названия различных бытовых предметов, ботанических, географических и др. терминов, а также ономастических выражений. Вторая глава, называемая «Структурные и лексико-семантические особенности диалектных слов, употребляемых в исторических романах 1960-1980 годов», посвящена анализу структурных типов диалектной лексики. В ней рассматривается роль окончаний и расширение их стилистическо-функциональных свойств в процессе словообразования, обсуждаются синтаксический путь словообразования, лексико-семантические характеристики диалектных слов, синонимов, антонимов, омонимов и проведен сравнительный анализ отобранных из романов диалектных слов и выражений. В третьей главе «Диалектные формы в исторических романах Азербайджана 1960-1980 годов и архаическая лексика» на основе диалектных фактов объяснены фонетические и морфологические изменения некоторых слов, происшедшие в живом разговорном языке. Часть материала посвящена словам, сохранившим следы в диалектах и говорах в форме архаизмов и историзмов. Учитывая важность этих выражений для изучения истории языка, проведен их отбор из исторических романов и осуществлено исследование.

В заключении диссертации обобщены основные результаты исследования.

**Feyziyeva R.M.**

**Dialect lexis in the language of Azerbaijan historical novels**
(based on novels 1960-1980 period)

**Summary**

The dissertation devoted to a linguistic analysis of dialect words gathered from the historical novels of Azerbaijan writers 1960-1980 periods.

The relevance, purpose, objective, methods and sources of research, theoretical and practical significance of the study are presented in the section "General description of the study".

The introduction describes the value of dialect vocabulary in the development of literary language.

In the first chapter of dissertation "The classification of dialect words encountered in the historical novels of 1960-1980 period on scope of use" shows the transition of dialectal words in literary language, and using the collected materials explains the scope of the dialectal distribution, analyzed the various titles of household items, botanical, geographic and other terms as well as onomastic expressions. The second chapter of the dissertation entitled "Structural and lexical-semantic features of the dialect words used in the historical novels of 1960-1980 period" is devoted to analysis of structural types of dialect vocabulary. It addresses the role of word-endings and expanding their stylistic and functional properties in the process of word derivation, and syntactic mode of word derivation. The lexical-semantic features of dialect words, synonyms, antonyms, homonyms discuss, and the comparative analysis of the dialect words and expression collected from novels were conducted. In the third chapter of the dissertation called "Dialectal forms of historical novels of Azerbaijan in 1960-1980 period, and archaic vocabulary" based on the dialect facts attributed the phonetic and morphological changes in some words that have taken place in the colloquial language. Part of the material is devoted to the words which retain traces in dialects and varieties in the form of archaisms and historicism. Given the particular interest and importance of such expressions for the study of the history of language, we have done a selection of these words from historical novels and carried out their research.

The main results of research are summarized in conclusion of dissertation.

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ЯЗЫКОЗНАНИЯ им. НАСИМИ**

*На правах рукописи*

**РУХСАРА МИРЗА кызы ФЕЙЗИЕВА**

# ДИАЛЕКТНАЯ ЛЕКСИКА В ЯЗЫКЕ АЗЕРБАЙДЖАНСКИХ ИСТОРИЧЕСКИХ РОМАНОВ
**(на основе романов 1960-1980 годов)**

**10.02.01 – Азербайджанский язык**

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание ученой степени**
**доктора философии по филологическим наукам**

**ВАКУ – 2012**